## QEYD VƏ ŞƏRHLƏR

**Elan**

səh. 399. "Büro perevozki": Azərbaycan Dəmiryolu İdarəsinin, Yükdaşımaların Tənzimlənməsi Bürosu nəzərdə tutulur.

**İngilis siyasəti - I**

səh. 402. "Ayastefanos" (yaxud San-Stefano): hal-hazırda İstanbulun bir rayonu olan Yeşilköy.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 403. "Bala Yengicə": Ərəş (Ağdaş) qəzasının kəndi; indiki Yevlax rayonunun Yenicə kəndi; qəzetdə hər yerdə "Bala Yercə" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 409. "Maddalena": qəzetdə soyadı "Maqdalena" şəklində təhrif edilmişdir.

**Qəzetələrdən**

səh. 409. "Kiraser eskadronu" [Escadron des Cuirassiers]: Fransada fəxri süvari dəstəsi; "kirasa" [cuirasse] deyilən xüsusi zireh geydikləri üçün belə adlanırdılar.

"Q. Anoto": qəzetdə "Qanoto" kimi təhrif edilmişdir.

səh. 410. "Beytülmüqəddəs": Yaxın Şərqdə, Aralıq dənizi və Ölü dəniz arasında yerləşən, dünyanın ən qədim şəhərlərindən biri olaraq qəbul edilən Qüds (Yerusəlim) şəhəri nəzərdə tutulur.

"Davudun qəbrinə": İsrailoğullarına göndərilmiş Davud peyğəmbər nəzərdə tutulur.

**Nəzarətlərdə**

səh. 415. "rüşdiyyə": təhsildə ibtidai məktəbdən sonrakı mərhələyə məxsus məktəb; orta məktəb.

"edadi məktəb": şagirdləri ali məktəbə hazırlayan məktəb.

**Fəhlə həyatından**

səh. 423. "bir təqrir təqdim etmişdir. Təqririn başlıca nöqtələri…": qəzetdə "təqrir" yerinə hər iki halda "təqdir" getmişdir.





**Cümə axşamı, 20 noyabr 1919-cu il, nömrə 326**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 26 səfərül-müzəffər sənə 1338. 20 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**ELAN**

Azərbaycan Dəmiryolunun İdarəsi bununla elan edir ki, "Büro perevozki"-nin qərardadı mövcibincə [qərardadına əsasən], hər gün 3 nömrəli qatara balıq və balıq məkulatından [məhsullarından] ötrü bir vaqon bağlanacaq bu vaqona mallar Bakı şəhər istasyonunda 150 puda qədər və bu miqdarda da Bakı birinci istasyonunda qəbul olunur.

*T-345*

**SİRK "MODERN"**
**Mübarizənin son günləri**

Hamı mübarizələr qətidir. Pəncşənbə günü noyabrın 20-ndə 1919-ncu ildə. Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı güləşlər qətidir. 1-nci: Gənc Əli – Yermak; 2-nci: Naməlum – Buyvolov; 3-ncü: Qafqaz güləşi Raqenbaum – Koknidze.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Qara Maskanın benefisi hazırlanır.

*14066*

1919 sənə noyabrın 20-sində pəncşənbə günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-340*

**DƏVƏT**

Bakı Şəhər Duması Şəhər Dumasına olacaq intixabat [seçki] siyahılarını tərtib etməyə şüru etmişdir [başlamışdır]. Qanun əsasına görə, seçki yeşiklərinə intixabat siyahısına idxal edilən əşxas [şəxslər] buraxılacaqları üçün Şəhər İdarəsi intixabda iştirak edəcək heç bir vətəndaşın siyahıdan düşməməsi üçün bütün tədabiri ittixaz edəcəkdir [tədbirləri həyata keçirəcəkdir].

İntixabçıların familiya və ünvanlarının məlum edilməsindən ötrü 20 yaşından başlamış bütün əhalinin siyahısı tutulacaqdır. Böylə siyahı tutulmasının ancaq intixabat siyahılarının tərtib verilməsi qəsdi ilə olduğunu və bundan başqa qeyri bir məqsəd olmadığını əhali bilməlidir.

Siyahı həmin sənə təşrini-saninin 19-dan 26-na qədər davam edəcəkdir.

Şəhər İdarəsi böylə böyük bir işə şüru edərək, əhalini siyahı tutanlara, mülklərinə və odalarına buraxıb, isticvabda [dindirmədə, sorğu-sual etmədə] siyahı tutanların suallarına doğru və dürüst cavab verməklə müavinətdə bulunmağa dəvət edir. Ancaq bu surətlə intixabat siyahısı tərtib verilə biləcək və bütün vətəndaşlar öz hüquqlarını mühafizə edəcəkdirlər.

*Şəhər İdarəsi rəisi: İlyuşkin*

## DENİKİN NÜMAYƏNDƏSİNİN GETMƏSİ

Denikinin Azərbaycandakı nümayəndəsi miralay Palitsın ilə əvvəlcə Baratov heyəti-məxsusəsində bulunan Belyayev Bakıdan çəkilib getdilər. Demək ki, Denikinin bundan sonra Azərbaycanda nümayəndəsi yoxdur.

Məlumdur ki, Azərbaycan Denikin hökumətini siyasi və hüquqi nöqteyi-nəzərlə təsdiq etməmişdi. Çünki Denikin ilə Azərbaycan arasında tam bir anlaşma hasil olmamış və münasibati-düvəliyyə [dövlət münasibətləri] üçün lazım gələn əsasat [əsaslar, prinsiplər] təmin edilməmişdir.

Şu halda, bu zamana qədər Azərbaycanda nümayəndə olaraq qalan Palitsın beynəddüvəl [dövlətlər arası] əsasat daxilində bir rəsmiyyəti haiz olmadığı [daşımadığı] kimi, Azərbaycanın da Denikin nəzdində eyni şəraiti-hüquqiyyə daxilində bir nümayəndəsi bulunmamışdır.

Denikin nümayəndəsinin Bakıdan çıxıb getməsi isə qəti-münasibət və əlaqə [münasibətin və əlaqənin kəsilməsi] kimi bir mahiyyəti haiz olammayacaqdır. Çünki əsasən bir münasibati-siyasiyyə təmin edilməmişdi.

Xariciyyə Nəzarəti İstixbarat şöbəsinin verdiyi məlumata görə, köçüb gedən nümayəndənin yerinə Denikin tərəfindən bir digəri təyin olunacaq imiş.

Əgər bu məlumat doğru çıxarsa, şu halda Denikinin Azərbaycan istiqlaliyyəti ilə anlaşa biləcəyi düşünülər. Yox, əgər doğru çıxmazsa, yəni Denikin nümayəndə göndərməzsə, hal-hazırda köçüb gedən nümayəndə[yə] büsbütün Azərbaycan və Denikin münasibatının inqitaya uğramasına [kəsilməsinə] bir əlamət olaraq baxılar.

Həqiqətdə Denikin və Kolçak kimi hökumətsizlik həyatı keçirən generalların siyasətləri əlbəttə ki, müəyyən bir dairədə durmaz. Çünki böyük bir macəracuyanə [avantürist] qayə təqib edən bu iki "Rusiya vətənpərvərləri" qayələrinə çata bilmək üçün hər bir vasitəni istemal etməyə [işlətməyə] mail olduqları kimi, söz ilə işdə bilqəsd təlif etməməyə [məqsədli bir şəkildə, sözləri ilə işlərinin uyğun gəlməməsinə] tərəfdardırlar.

Monarxizm ruhu o qədər dik və kordur ki, bəzən əyri yol ilə doğruya, bəzən də doğru yol ilə əyriyə getmək istər.

Əvvəlcə Azərbaycana gələn və sonra Gürcüstana gedən general Baratov heyətinin bəzi təşəbbüslərindən Qafqaz cümhuriyyətləri ilə Denikin arasında bir etilaf əqdi məmul ikən [bir saziş imzalanması gözlənilərkən], Baratovun Gürcüstanda bir qəzaya uğraması əhvalı dəyişdirmişdi.





Şübhə ediləmməz ki, Denikin nəzərində general Baratov kimi səlahiyyətdar və böyük bir simanın Zaqafqaziya cümhuriyyətlərindəki siyasi vəzifəsi müvəffəqiyyətsizliyə uğraması yenidən bu cümhuriyyətlərlə müzakirata girişməyə mane olmuşdu.

O zamandan bu zamana qədər isə Denikin ilə Qafqaz cümhuriyyətlərinin münasibatı dəyişməmişdi.

İndi isə qeyri-rəsmi olsa da, Azərbaycandakı nümayəndəsinin getməsi əhvalın bir az başqa rəng aldığına işarət olsa gərək.

Əvvəla, Denikin nümayəndəsinin əziməti [gedişi] Denikin kompaniyasının bir əmrinə görədir. Bu əmr isə Denikin üfüqündə əhvali-siyasiyyənin dəyişməsi ilə əlaqədardır. Ya Denikin Antanta siyasətindən qeyri-məmnun qalmış və özbaşına hərəkət etmək lüzumunu hiss etmiş, yaxud Antanta siyasətinə uyaraq "Rusiyadakı" bütün cümhuriyyətlərlə həqiqi və hüquqi bir münasibati-siyasiyyəyə girişməyi lazım bilmişdir.

Birinci ehtimal bizcə daha ziyadə məmul [arzuedilən] olmaqla bərabər, qiymət və əhəmiyyəti yox kimidir. Çünki keçən məqaləmizdə də qeyd etmişdik ki, Avropa və Antanta "Rusiya" məsələsini qəti bir şəklə soxmaq üzrədirlər. Bu qətiyyət isə bilxassə İngiltərə üçün ənənəvi siyasətdən ibarət olacağı zənn edilir.

"Rusiyada" yalnız Denikin cümhuriyyətlərlə bir müxasiməyə [düşmənçiliyə] girişərsə, bunun əgər Antanta dövlətləri nəzdində əsas və kökü olmazsa, qiymətini qeyb etməyə məhkumdur.

Şu halda birinci ehtimal Denikin üçün bir müxatirəyə [təhlükəli vəziyyətə] girməkdən (Рисковать) ibarət olduğu üçün hərbi cəhətlə mənası vardır. Çünki o zaman bilxassə Qafqaziya cümhuriyyətlərinin istiqlaliyyət uğrunda bu dərbədər təcavüzlərə qarşı hazırlanması icab edər.

Əgər ikinci ehtimal nəzərə alınarsa, bu da Avropa və Antanta siyasətinin əsaslı bir surətdə dəyişməsinə bir dəlil deməkdir.

Və biz zənn ediriz ki, İngiltərə siyasəti artıq bu cəhətə daha ziyadə əhəmiyyət verməyə başlamış və müəyyən bir proqramla bunu əmələ gətirməyə hazırlanmışdır.

Hər halda, Denikin nümayəndəsinin əziməti məhəlli bir vəqə [yerli bir hadisə] də olsa, əhvali-ümumiyyəyi-siyasiyyədən [ümumi siyasi vəziyyətdən] büsbütün ayrı bir şeyədd [hesab] ediləmməz.

Bizim, gedən və yaxud gələn nümayəndələrə sözümüz aydın və aşkardır:

– Azərbaycan istiqlaliyyəti!

*Ə[hməd] H[əmdi] [Qaraağazadə]*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqraf mövqifi tərəfindən alınmışdır)*

**18 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Arxangel cəbhəsində zirehli qatarının müvəffəqiyyətsiz hərəkatı. Fin körfəzi səvahilində [sahillərində] hissələrimiz

Luqa nəhrini istila etmişlərdir. Narva cəbhəsində Yamburqdan qərbə vuruşmalar davam edir. Narvadan cənuba bizim hissələrimiz bir neçə kənd işğal etmişlərdir. Dəmiryol xətti ətrafında şiddətli vuruşma getməkdədir. Qərbi Dvinada kəşfiyyat əməliyyatı. Çerniqov cəbhəsində yürüşümüzdə davam ediriz.

Lqov dairəsində bizim süvarəmiz düşmən süvarəsini Kastornov və Sokonikov mövqifləri dairəsində münhəzim [məğlub] edərək iki zirehli qatar, iki avtomobil, mərmi və fişənglərlə vaqonlar və başqa qənimətlər alınmışdır.

Bobrov və Kalaç dairələrində yürüşümüz davam edir.

Novoxopyor dairəsində hissələrimiz yürüşlərinə davam edərək, Novoxopyordan cənub-qərbə bir neçə kənd işğal etmişdir.

Kizlyar dairəsində hissələrimiz vuruşma ilə Tarnovski-Talovanı işğal etmişdir. Əsir və başqa qənimətlər alınmışdır.

Omsk dairəsində bizim hissələrimiz pərakəndə bir surətdə ricət edən [geri çəkilən] Kolçak ordusunu şərqə tərəf qovmaqdadır.

Sibirya dəmiryolunda Qirovka keçidi və başqa nöqtələr işğal edilmişdir. İşğalımız əsnasında 11 top, 1 milyon 500 min patron alınmışdır.

**Yudeniç vəhşətləri**

Alınan məlumatlara nəzərən, Qdovda ağ qvardiyalılar tərəfindən edam edilənlərin ədədi 1000 nəfərə yaxındır.

**Qırmızı kazaklar davaya**

Ural qırmızı kazakları süvari dəstələr təşkil etməkdədirlər.

**Qırğızlarla əmtəə mübadiləsi**

Qırğızlarla mal mübadiləsinə başlanılmışdır. Götürülən heyvanlar məbləğinin bir hissəsi əvəzinə bəzzaziyyə malı verilməkdədir.

**Smolenskdə yeni həyat**

Bartsov fabrikası cənbində [nəzdində] fəhlə şəhərinin inşasına mübaşirət edilmişdir [başlanmışdır].

**Kolçaka sui-qəsd**

Kolçak evində patıltı əmələ gətirilmişdir. Admiralın canına sui-qəsd əl qumbaraları vasitəsilə olmuşdur. 6 saldat ölmüş və 12 nəfər yaralanmışdır.

Axırıncı məlumata görə, Voloçisk şəhəri qiyamçılar tərəfindən işğal edilmişdir.

**Estoniya hökumətinin istefası**

Helsinqfors [Helsinki] - Reveldən [Tallindən] xəbər verirlər ki, Estoniya Cümhuriyyəti hökuməti bütün heyəti ilə Məclisi-Müəssisan [Təsisçilər Məclisi] sədrinə istefaları xüsusunda bir ərzi-hal [ərizə] təqdim etmişlərdir.

**Mitinqlər**

Nauen - Fransada olan 400 min nəfərə kimi Almaniya hərbi əsirlərinin saxlanılması əleyhinə protesto olaraq Berlində böyük mitinqlər olmuşdur.

**Təkzib edilir**

Revel - Müttəfiqlər məlumatı ilə finlandiyalıların Petroqrad hücumunda iştirak edəcəkləri haqqındakı xəbərlər rəsmi surətdə təkzib edilir.





*(Gürcü teleqraf acentəliyindən)*

**Fransa mətbubatı**

**Mütarikə şəraitinin imzalanması**

Bu vaxta qədər Almaniyanın hesaba almadığı mütarikə şəraitini [atəşkəs şərtlərini] imza etməkdən ötrü, müvəkkil nazir [Ernst] fon Simson başda olaraq Almaniya mürəxxəsəsinin [nümayəndə heyətinin] 17 təşrini-əvvəldə [oktyabrda] Parisə vürudu [gəlməsi] gözlənir.

**Mustafa Kamal paşa və Lenin**

İstanbuldan xəbər verirlər ki, Mustafa Kamal paşa Suriyadan teleqrafla Leninə müraciət edərək, türk millətçiləri ilə Şura Hökuməti arasında ittifaq əqd edilməsini [imzalanmasını] təklif etmişdir.

**Rusiyada və Ukraynada**

Nikolayevdən xəbər verirlər ki, Hacı-Tərxan quberniyası kəndçiləri yenidən bolşeviklərin əleyhinə iğtişaş qalxızmaqdadırlar. Borisoqlebsk qəzasında qırmızılar əleyhinə qiyam gündən-günə artmaqdadır. Bryanskda qiyam edən əmələlərə 14-cü Qırmızı ordu mülhəq olmuşdur [qoşulmuşdur]. Vuruşmalar gedir. Hərəkat artmaqdadır. Eyni vaxta Kaluj qəzası və Serpux[ov]da iğtişaşlar üz vermişdir. Moskva quberniyası həyəcandadır. Cümləsi cənuba Denikin ordusu ilə ilhaq olmağa [birləşməyə] səy edir. Qiyam və iğtişaşları yatırmaqdan ötrü bolşeviklər cəbhədən qoşun almağa məcbur olmuşlardır. Otuz min miqdarında Qaliçya alayları Petlyura ordusunu buraxmışlardır. Axırıncının Almaniya ilə əlaqədə olması şübhə xaricindədir. Cənubi Rusiyada bolşeviklər tərəfindən təşkil edilmiş Əmələ-Sənətkarlar İttifaqı yenidən bərpa edilmişdir.

**Fiume məsələsi**

Romadan xəbər verirlər:

Kralın Nitti ilə olan şurasının Fiume məsələsinə aid olduğunu qəzetələr işar edir [xəbər verir]. Şurada generallardan Albriççi, Dias və Badolyo isbati-vücud [iştirak] edirdilər.

**Yeni Estoniya Hökuməti**

Stokholmdan xəbər verirlər ki, Estoniya Milli firqəsi başçılarından olan Tonissona yeni bir müştərək hökumət təşkili tapşırılmışdır.

*(Qafqaziydakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Estoniya və Moskva**

Estoniya Xariciyyə naziri, Çiçerinə, Şura Rusiya tərəfindən təklif edilən sülh şəraitinin Yuryevdə müzakirə edilə bilməyəcəyini xəbər vermişdir. Bu məsələnin müzakirəsindən ötrü, Estoniya hökuməti bir komissiya dəvət etmək xəyalındadır. Komissiyanın dəvəti vaxtı məlum deyildir.

**Fon Sandersin istefası**

Məşhur generallardan Liman fon Sanders yarı maaşı verilməklə istefaya əzl edilmişdir [göndərilmişdir].

*(İtaliya heyəti xəbərləri)*

**Lloyd Corc Rusiya haqqında**

London - Lloyd Corc Avamlar Kamerasında Şura Rusiya hökuməti nəzdinə

heç bir kimsəni göndərmədiyini bəyan etmişdir. Rusiyaya müavinət haqqında demişdir:

*"Vətəndaş müharibəsinin qət edilməsini [dayandırılmasını] lazım və vacib bilir."*

**Bolqariya və sülh**

Paris - "İntormanito" qəzetəsi xəbər verir:

Bolqariyanın müahidənaməni [sazişi] imza etməyə mail olduğu haqqında Konfrans rəsmi bir nota almışdır.

**Lloyd Corc İtaliya haqqında**

Roma - İngiltərə Rəisi-vükəlası [Baş naziri] Vild-hollda bir nitq söyləmiş və Adriatik məsələsi İtaliyanın xahişi [istəyi] və mənafeyi üzrə həll edilə biləcəyini demişdir. Niqtinin bu hissəsi gurultulu və şiddətli alqışlarla qarşılanmışdır.

## İTALİYADA İNTİXABAT

*(Əcnəbi qəzetələrdən)*

İtaliyada dekabrın 14-də Məclisi-Məbusan intixabatı [seçkiləri] başlamaqdadır. Bu intixabat[ın] İtaliyanın gərək daxili, gərək də xarici siyasətində təsiri olacaqdır.

İtaliyada əgər kiçik siyasi firqələri nəzəri-etibara almazsaq, üç böyük siyasi firqə yekdigərləri [bir-birləri] ilə mübarizə etməkdədirlər. Birincisi Sosialist firqəsidir ki, az-çox bir qüvvəti təmsil etməkdədir. Bundan başqa bu firqə qüvvətli əsaslara istinad etməkdədir, o da Avropanın böyük bir ictimai dəyişikliklər keçirməkdə olmasına görə, İtaliya Sosialist firqəsin yekvücud bir surətdə hərəkət edib İtaliyanı təzə bir idarəyə tabe etmək üçün camaatı hazırlamaqdadır.

İkincisi isə Mərkəzi Radikal Cümhuriyyət firqəsidir ki, İtaliyada radikal bir siyasətin hakim olmasını tələb və cümhuriyyətin elan edilməsini arzu etməkdədir.

Hər iki firqə də Avropa siyasətinin Rusiya ümuruna [işlərinə] müdaxilə etməsini protesto edib, Rusiyadakı inqilabçı ünsürlərə qarşı da dostanə bir surətdə nəzər etməkdədirlər. Bu hər iki firqə sağ firqə üçün rəqib olub mübarizə etməkdədir.

Sağ firqə isə bəzi islahatın icrasını tələb edirsə də, İtaliyanın təşkilati-əsliyyə və ictimaiyyəsinin heç bir dəyişikliyə tabe olmamasını istəməkdədir.

Bu sağ firqə Rusiya məsələsinə müdaxilə etməyə tərəfdar olduğu kimi, Fiume məsələsinin də silah gücü ilə həll edilməsinin lehindədir. Bu firqəyə məşhur hekayənəvis və müəllif D'Annunsio müntəsibdir [mənsubdur].

Hankı firqənin intixabatda qazanacağını təyin etmək çətindir. Fəqət cərəyani-əhvaldan anlaşıldığına görə, sağ firqə məğlub olacaqdır.

Əgər sağ firqə intixabatda məğlub olarsa, Məclisi-Məbusanda əksəriyyəti-tamməni haiz olacaq [tam əksəriyyətə sahib olacaq] iki firqə qalacaq ki, biri Sosialistlər, digəri də islahatçılardır (reformistlərdir). Əgər sol firqələr qalib gələrsə, yalnız siyasəti-daxiliyyədə deyil, xarici siyasətdə və Denikin əleyhindəki hərəkatda dəxi böyük bir rəqabət və müxalifətin çıxması demək olacaqdır.





Ondan başqa, bizzat [şəxsən] Versal Sülh Konfransının Almaniya ilə əqd etdiyi müsalihə [imzaladığı sülh] də bir növ şübhəli bir dairəyə düşəcəkdir.

Çünki əqd edilən müsalihə daha İtaliyada Məclisi-Məbusan tərəfindən təsdiq edilmədiyindən, əgər intixabatdan sonra sol firqələr Məclisi-Məbusanda əksəriyyət qazanarlarsa, müsalihəni rədd etmək və yaxud dəyişdirmək istəyəcəklərdir.

Əgər islahatçılar (reformistlər) əksəriyyəti qazanarlarsa, o zaman İtaliyanın daxili siyasəti dəyişib, İtaliyada şəkli-idarə də cümhuriyyətə təhəvvül etmiş [çevrilmiş] olacaqdır. Bundan başqa, bu cümhuriyyətçi firqə Rusiya məsələsinə müdaxilə etməkdən saqınıb, Rusiyadan əmələ gəlmiş cümhuriyyətlərin də təsdiqinə tərəfdar olacaqdır.

Hər-halda İtaliyada intixabat münasibəti ilə böyük bir siyasi dəyişikliklər gözlənilir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Maliyyə nazirinin tənbəkidən alınan rüsumun artırılması haqqındakı təqriri isteması [rəsmi məktubunun dinlənilməsi] nəticəsində qanun layihəsinin təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxal edilməsi tapşırılması qərara alınmışdır.

* * *

Maliyyə nazirinin şəkərə rüsum təyini haqqındakı təqriri isteması nəticəsində, qanun layihəsinin təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxal edilməsi tapşırılması qərara alınmışdır.

* * *

Maliyyə nazirinin, ispiçkadan alınan rüsumun atrırılması haqqındakı təqriri isteması nəticəsində, qanun layihəsinin təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxal edilməsi tapşırılması qərara alınmışdır.

* * *

Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin qaçqınların fəna əhvalı və müavinət təşkili haqqındakı növbədənxaric təqriri isteması nəticəsində qərara alınmışdır:

1) Qaçqınların məskun edilməsi məsələsinə Məclisi-Məbusanda hələ baxılmadığına görə və qaçqınların fəna əhvallarını nəzərə alaraq, müvəqqəti qaçqınları müsəlman köylərində məskun etmək məsələsi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə tapşırılsın.

2) Hal-hazırda Məclisi-Məbusanın təsdiqinədək məzkur [deyilən] məqsəd üçün 70 milyonluq fonddan Ümuri-Xeyriyyə Nəzarətinə 2 milyon manat buraxılsın; işbu məbləğ qanun layihəsi təsdiqindən sonra qaytarılmalıdır.

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

**Bakıda Fransa Bəhriyyə Nəzarəti heyəti**

İşbu günlərdə Fransa Bəhriyyə [Donanma] Nəzarətinin bir heyəti Bakıya varid olmuşdu [gəlmişdi]. Heyət Qara dənizdə durmuş iki ədəd Fransa zirehlisi, 12 ədəd də xırda gəmilərinə və filcümlə Fransa bəhriyyəsi üçün neft almaq qəsdi ilə Bakıya gəlmişdir.

Heyət üç nəfərdən ibarət olub, dövləti müəssisələrlə əlaqə peyda etmək qəsdi ilə oraları ziyarət etmişlərdir.

Hal-hazırda neft vaqonlarının əksəri ingilis komandanlığı üçün neft apardığından, heyət neftin vaxtlı-vaxtında verilməsi haqqında təşəbbüsatda bulunmuşdur.

**Müşavirə**

İşbu təşrini-saninin 15-də Xariciyyə Nəzarətində Azərbaycanın İran səfiri Adil xan Ziyadxanov həzrətləri tərəfindən dəvət edilmiş bir müşavirə iniqad etmişdi [baş tutmuşdu]. Müşavirədə Post-Teleqraf, Maliyyə, Ticarət və Sənaye, Ədliyyə nəzarətləri nümayəndələri – Knyazov, Fəttahov, Azərbaycan Dövləti Bankından Pokrovski və [Nəsir] Tağıyev, Neftçilər İttifaqı tərəfindən Melkovski, Su Nəqliyyatı İdarəsi tərəfindən, Ticarət və Sənaye İttifaqı tərəfindən [Sadıq] Əhmədov, iqtisadiyyə agentəsi, Lehistan [Polşa] Cümhuriyyəti nümayəndəsi, dava vəkili Kribski, Xariciyyə Nəzarəti Məlumat bürosu müdiri Şepotyev [iştirak edirdilər].

Müşavirədə İran ilə Azərbaycan miyanındakı [arasındakı] ticarət işlərini və manatın qiymətini qalxızmaq məsələsi müzakirə edilmişdir.

Xüsusən axırıncı məsələ mübahisəyə səbəb olmuşdur.

Müşavirə gecə yarısınadək davam etdiyindən, digər məsələlərin müzakirəsinə imkan vermədi.

**Azərbaycan Cümhuriyyətinin Sülh Konfransına qasidləri**

Hal-hazırda Parisdə olan Azərbaycan sülh heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] son zamanlara qədər nizam üzrə Cümhuriyyətlə əlaqə peydasından məhrum idi. İşbu məsələnin həlli Azərbaycan hökumətini düşündürürdü. Zira İstanbula getmək üçün vəsiqə almaq pək müşkül idi.

Hal-hazırda məsələ həll edilmişdir. Müttəfiqlər Azərbaycandakı Xariciyyə Nəzarətinə xəbər vermişlər ki, Komandanlıq bu günlərdə bu məsələni nizama salmaqla, vaxtlı-vaxtında qasidlərin azad surətdə getməsinə müavinətdə bulunacaqdır.

## ZƏNGƏZUR MƏSƏLƏSİ ƏTRAFINDA

**İdarədən:**

Bəzi dairələrdə Zəngəzur hadisatına qərəzkaranə rənglər verilir. Söyləyirlər ki, guya qanlı müharibələr olmuş imiş və on minlərcə məqtul və məcruh [ölən və yaralanan] var imiş. Atidə mündəric [aşağıda dərc edilən] rəsmi vəsiqələr açıqca göstərir ki, Zəngəzur qəzasında müharibə hərəkatı xüsusunda heç bir söz də ola bilməz və Azərbaycan hökuməti tərəfindən göndərilmiş qoşunlar erməni cümhuriyyətinə qarşı ədavətkaranə hərəkat üçün olmayıb, ancaq məmuranın təhtiidarəsinə [məmurların tabeçiliyinə] verilmişdir ki, lazımi təqdirdə Zəngəzur qəzasında erməni əşqiyalarının [quldurlarının] anarşi çıxışlarına qarşı mübarizə tədabiri ittixaz edə [tədbirləri görə] bilsin.

Qəzetəmizin keçən nömrələrinin birində Ermənistan hökuməti tərəfindən Azərbaycan Xariciyyə naziri həzrətlərinə verilmiş təcili notanı dərc etmişdik və şimdi də o barədə olan digər vəsiqələri ənzari-qareinə vəz [oxucuların nəzərlərinə təqdim] ediriz:

**Vordropun müraciəti**

*"Bakı, Rəisi-Vükəla [Baş nazir] Yusifbəyliyə*

*Əldə edilən məlumatların həpsi göstərir ki, Zəngəzur qəzasında ermənilərlə azərbaycanlılar münasibatı ciddiləşmişdir və mümkündür ki, hər dəqiqədə müsadimə [toqquşma] vüqu bulsun. Zəngəzur qəzası müqəddəratı məsələsinin müşkülatla dolu olduğunu və o müşkülatı həll etmək, üqdəni [düyünü] açmaq üçün hər iki tərəfdən ötrü bir çox danışıqlar lazım olduğunu iqrar [qəbul; etiraf] etməklə bərabər, mən onu göstərmək istəyirəm ki, bu məsələni zorən həll etmək arzuya müvafiq olmadığı kimi, hər iki tərəfin mənafeyinə də, ümumiyyətlə əfkari-ümumiyyədə [ictimaiyyətin nəzərində] və xüsusən Sülh Konfransında sui-təsir edə bilər. Binaənileyh [ona görə], mən ciddən tövsiyə edirəm ki, nasıl olsa da, müsadimədən çəkinərək əhvalı təskin etmək [sakitləşdirmək] üçün mümkün tədabiri ittixaz edəsiniz və sizi ciddi surətdə xəbərdar edirəm ki, bu məsələnin həllindən ötrü qüvvə istemal etmək [işlətmək] ancaq sizin gözəl mənafeyinizə zərər yetirə bilər.*

*Bu əxbaratın [xəbərdarlığın] eyni surəti Ermənistan Rəisi-Vükəlasına da göndərilmişdir.*

*Zaqafqaziyada Britaniya Baş komissarı: Vordrop"*

**Reyin müraciəti**

*"Bakı, Rəisi-Vükəla Yusifbəyliyə*

*Nömrə 308*

*Zəngəzurda müharibə hərəkatını bilatəxir qət etmək [dərhal kəsmək] üçün mənim israrla tövsiyələrimə rəğmən, aldığım məlumata görə müharibə davam edir. Məhəlli [lokal] ixtilaflar hal-hazırda Sülh Konfransının Zaqafqaziya məsələsini həll etməsi üçün artıq müşkülat yaratmamalıdır. Bu məni müztərib edir [mənə iztirab verir]. Binaənileyh və Sülh Konfransı naminə zati-alilərinizə və Ermənistan Rəisi-vükəlasına ciddən tövsiyə edirəm ki, 20 təşrini-sanidə [noyabrda], sübh saat 11-də, Tiflisdəki idarəmdə mənimlə görüşəsiniz ki, sizin Sülh Konfransının arzusu əleyhinə gedərək və aləmi-mədəniyyət rəyini nəzərietinaya almayaraq, şimdi qan tökməklə həll etmək istədiyiniz məsələni sülhlə həll etmək üçün konfrans çağırmaq müsahibələri edilsin. Sizin cavabınızın intizarında olaraq, Azərbaycan nümayəndələri ilə bu məsələnin müşavirəsindən ötrü Bakıya əzimət etmədə [getməkdə] olan erməni mürəxxəslərindən [səlahiyyətli nümayəndələrindən] mən rica etdim ki, burada qalsınlar. Mən sizdən təcili cavab bəkləyirəm ki, sizin buna nə nəzərlə baxdığınızı Sülh Konfransına xəbər verə bilim.*

*Müttəfiqlər Baş komissarı əvəzi: Rey*

*Tiflis, 16 təşrini-sani, 1919 sənə"*

**Hökumətin cavabı**

*"Tiflis*

*Müttəfiqlər Baş komissarı əvəzi polkovnik Reyə*

*14, 15 və 16 təşrini-sani tarixli 308*

*nömrəli teleqrafnamələrinizə cavab olaraq kamali-ehtiramla bərvəchi-ati elam edirəm [aşağıdakı kimi bildirirəm] ki, Zəngəzurda Azərbaycan hökuməti tərəfindən müharibə əməliyyatı yoxdur. Zəngəzur Azərbaycan Cümhuriyyətinin cüzi-layənfəkkidir [ayrılmaz parçasıdır]. O yerin daima Azərbaycanın qeyri-qabili-təfriq [ayrılmaz] hissəsi olmasına bizdən başqa Müttəfiqlər də kəndi komandanlıqları sifəti ilə öyləcə baxmışlardır və Sülh Konfransı Baş komissarı Haskell kəndisi də bizim Zəngəzur qəzasına qeyri-qabili-inkar [inkarolunmaz] hüququmuzu iqrar edərək – Naxçıvan məsələsi etilafnaməsinin [razılaşmasının] bir maddəsində – erməni hökumətindən tələb etmişdir ki, Zəngəzur qəzasında üsyan hərəkətlərini sülh təriqi [yolu] ilə təsviyə etməkdən [aradan qaldırmaqdan] ötrü Azərbaycan hökumətinə müavinətdə bulunsun və böyləliklə, şu qəzanın erməni əhalisini Azərbaycan dövləti məmurlarına tabe olmağa məcbur etsin. Azərbaycan hökumətinin almış olduğu son məlumata nəzərən, Ermənistan hökuməti polkovnik Haskell hüzurunda qəbul [edilmiş] təəhhüdü [öhdəliyi] nəinki ifa etmiş və biləks [əksinə], Zəngəzur qəzasında üsyan hərəkatını müdafiə və təqviyə etmək [dəstəkləmək] üçün oraya müntəzəm ordu da göndərmişdir.*

*Bundan dolayı Azərbaycan hökuməti məcbur olmuşdur ki, intizam bərpa etmək və anarşist-bolşevik ruhlu erməni üsyançı əşqiyasına icrayi-təsir edə bilmək üçün Qarabağ general-qubernatoruna əsgəri [hərbi] kömək göndərsin. Azərbaycan hökuməti istəyir ki, Zəngəzur qəzasında erməni üsyançıları tərəfindən müsəlman köylərinin bərbad və təxrib edilməsinin önünü alsın və 60 min soyulmuş müsəlman qaçqınlarını kəndi yurdlarına qaytarıb asayiş və nizam bərpa etsin.*

*Fövqdə məzbur [yuxarıda deyilən] teleqrafnamələrdəki ricanızı nəzəri-diqqətə alaraq mən Qarabağ general-qubernatoruna təklif etmişəm ki, Zəngəzur üsyançılarına qarşı heç bir dürlü hərəkati-hərbiyyədə bulunmasın və müharibə hərəkatı da qət edilmişdir [dayandırılmışdır]. Sizinlə və Xatisovla 20 təşrini-sanidə sübh saat 11-də görüşməyə hazıram, fəqət bu, erməni mürəxxəslərinin Bakıda konfransa gəlmələrinə mümaniət etməməlidir.*

*Nömrə 7517*
*17 təşrini-sani*
*Rəisi-Vükəla Yusifbəyli”*

Bu teleqrafnamənin eyni surəti Britaniyanın Zaqafqaziya Baş komissarı Vordropa da göndərilmişdir.

**Gürcüstanın vəsatəti**

Gürcüstan Cümhuriyyəti siyasi nümayəndəsi Tiflisdə Xariciyyə nazirinə atidəki əxbaratı [aşağıdakı xəbərləri] göndərmişdir:

*“14 təşrini-sanidə Ermənistan siyasi nümayəndəsi əvəzi Atamanov mənim yanıma gəlib Zəngəzur qəzasında müharibə hərəkatını durdurmaq işlərində vəsatətimi [vasitəçiliyimi] rica etmişdir, ta ki, qanlı hadisatın Zəngəzurdan keçib bütün Qarabağı qaplamasının önü alına bilsin.*

*15 təşrini-sanidən Xariciyyə naziri Cəfərovu və Rəisi-Vükəla Yusifbəylini ziyarət edib rica etdim ki, müharibə hərəkatını dayandırsınlar və münaqişəli məsələlərin həllini 20 təşrini-sanidə Bakıda iniqad edəcək [baş tutacaq] Ermənistan-Azərbaycan konfransına versinlər və ya bütün münaqişəli məsələləri həkəm [arbitr] üsulu ilə həll etsinlər.*

*Azərbaycan hökuməti rəisi Yusifbəyli kəndi tərəfindən Ermənistan nümayəndəsinə atidəki əxbaratı məlum etməmi məndən rica etdi:*

*– Zəngəzurda Azərbaycan hökuməti tərəfindən hərbi əməliyyat yoxdur. Zəngəzur Azərbaycan Cümhuriyyətinin cüzi-layənfəkkidir və oranın Azərbaycanın qeyri-qabili-təfriq hissəsi olmasına bizdən əlavə İngiltərə komandanlığı sifəti ilə Müttəfiqlər də daima öyləcə baxmışlardır və Sülh Konfransı Baş komissarı Haskell kəndisi də Zəngəzur qəzasına bizim qeyri-qabili-inkar hüququmuzu iqrar edərək, Naxçıvan məsələsi etilafnaməsinin bir maddəsində Ermənistan hökumətindən tələb etmişdi ki, Zəngəzur qəzasında üsyan hərəkətlərini sülh təriqi ilə təsviyə etmək üçün Azərbaycan hökumətinə müavinətdə bulunsun və şu surətlə o qəzanın erməni əhalisini Azərbaycan Cümhuriyyəti dövləti məmuranına tabe olmağa məcbur etsin. Azərbaycan hökumətinin almış olduğu son məlumata nəzərən, Ermənistan hökuməti polkovnik Haskell hüzurunda vermiş olduğu təəhhüdü nəinki ifa etmiş və biləks, üsyan hərəkatını müdafiə etmək üçün Zəngəzur qəzasına müntəzəm ordu da göndərmişdir. Bundan dolayı Azərbaycan hökuməti məcbur olmuşdur ki, intizam bərpa etmək və anarşist-bolşevik ruhlu erməni üsyançı əşqiyalarına icrayi-təsir üçün Qarabağ general-qubernatoruna əsgəri kömək göndərsin. Azərbaycan hökuməti istəyir ki, erməni üsyançıları tərəfindən müsəlman köylərinin bərbad və təxrib edilməsinin önünü alsın və 60 min soyulmuş müsəlman qaçqınlarını kəndi yurdlarına qaytarıb asayiş və qanunu, nizam[ı] bərpa etsin.*

*Rəisi-Vükəla Yusifbəyli mənə bəyan etdi ki, Zəngəzur qəzasında əsgəri qüvvə icra edilməsinə qarşı Ermənistan hökumətinin etiraz etməsini biz anlamayırız, zira onlar kəndiləri bu günə qədər Sürməli, İrəvan qəzalarında və Qars mülhəqatında [ətrafında] onların hakimiyyətini tanımaq istəməyən müsəlmanlara qarşı ən müdhiş təriqlə silah istemal edirlər. Məmafih [bununla belə] – Rəisi-Vükəla Yusifbəyli əlavə olaraq söylədi – Azərbaycan Cümhuriyyəti hökuməti 20 təşrini-sanidə Bakıda iniqadı təyin edilmiş Ermənistan-Azərbaycan konfransından imtina etməyir. Rəisi-Vükəla Yusifbəyli məndən rica etmişdir ki, fövqdə məzbur [yuxarıda deyilən] əhvalatı sizin mərifətinizlə [vasitənizlə] Gürcüstan hökumətinə xəbər verim.”*

**Müsəlləh müsadimə**

*Erməni qəzetəsinin xəbəri*

Təşrini-saninin 2-də üç hissədə müsəlman qüvvələrinin Zəngəzura yürüşü başlanmışdır – Şuşa tərəfindən, Qaryagin və Naxçıvan tərəflərindən.

Şuşadan 6 min miqdarında üç piyada alayı, 800 miqdarında iki süvari alayı, 8 yüngül top, 4 qaubiç [dağ topu] və 400 süvari kürdlər hərəkət etməkdə idilər.

Naxçıvandan 3 min miqdarında, başqa tərəflərdə mütəaddid [çoxsaylı] kürdlər hərəkətdə idilər.

Burada general [Davud bəy] Yadigarov və general-qubernator [Xosrov bəy] Sultanovun qardaşı Sultan bəy [Sultanov] sərkərdəlik etməkdə olub, bütün qoşun başında general Əliağa Şıxlınski dururdu.

Təşrini-saninin 6-da varid olan [gələn] məlumatdan anlaşıldığına görə, azərbaycanlılar Xoznavar, Dığ və Bayandur kəndləri üzərinə yürüşə başlayıb, Dığ kəndini yararaq Gorusa keçmək istəyirmişlər. Bunların qüvvəsinin çoxluğuna, mitralyoz və bomba atışmasına baxmayaraq, əhali bunların zərbəsinə davam edirmiş.

Xoznavar tərəfdə müsəlmanlar sabiqdə Xoznavar və Bayandur ilə bir yerdə işğal etdikləri Keçəldağdan ricətləri [geri çəkilmələri] əsnasında 7 mitralyoz buraxmışlardır.

## AZƏRBAYCAN HAQQINDA BİR NƏFƏR ERMƏNİNİN MÜTALİƏSİ

Tiflisdə müntəşir [nəşr olunan] "Obnovlenie" qəzetəsi yuxarıdakı sərlövhə altında A. İ. Petrosyanın bir məqaləsini dərc etmişdir ki, şayani-əhəmiyyət olduğu üçün eynən qəzetəmizə tərcümə ediriz:

*"Rusiya inqilabi-kəbiri saiqəsi [Böyük Rusiya inqilabı səbəbi] ilə Rusiyada zühura çıxmış vəziyyəti-siyasiyyə əzayi-dövlətdən [dövlət orqanlarından] sanılan münfərid [ayrı-ayrı] hissələrin süqutunu və Rusiya əsakirinin [ordusunun] Zaqafqaziyanı tərk etməsini mövcib oldu [tərk etməsinə yol açdı]. Öz qollarına tərk edilmiş Zaqafqaziya millətləri kəndi müqəddəratlarını kəndi əllərinə aldılar və binaənileyh [buna görə], Müsəlman Milli Şurası da 1918-ci sənə 28 mayısında Azərbaycan istiqlalını elan etdi. Ancaq bir il yarımdır ki, bu dövlət müstəqil olaraq yaşayır. Həyati-dövlətin təbii cərəyanları zamanında bir il yarım – bir saniyə deməkdir. Cahan müharibəsi və inqilabi-kəbirin tövlid etdiyi [meydana gətirdiyi] ictimai və milli məsələlər əski nizam və qəvaidi [qaydaları] bir ildırım sürəti ilə təxrib edərək [yıxaraq], onların ənqazı [xarabalığı] üzərində münasibatimiləl [millətlər arası münasibətlər] üçün yeni məbdələr [prinsiplər] xəlq edən zamanda, bütün millətlərin keçirməkdə olduğu böylə fövqəladə və tarixdə misalı görünməmiş hadisat [hadisələr] günlərində istixlas [xilas] yolunda edilən dəhhaş [dəhşətli] mübarizələr yeni milli dövlətlər doğuzdurur. Böylə bir zamanda isə bir il yarımda edilən işlər əhəmiyyət etibarilə bir çox on sənələrin və hətta yüz sənələrin fəaliyyətinə bərabərdir.*

*Azərbaycan türkləri nümayəndələri və Milli Şura fövqəladə şərait içində millətlərin dövləti istiqlalını [dövlət müstəqilliyini] elan etdikləri zaman həman Azərbaycan türkləri fəlakətli dəqiqələr keçirirdi. Onların istiqbalı [gələcəyi] və həyati-atiyələri [gələcək həyatları] zülmətlə örtülü olaraq məchul idi. Məmləkətdə anarşi hökmfərma idi [hökm sürürdü] və əmnü asayiş [əmin-amanlıq və asayiş] bərpa etmək üçün onların qüvvələri yox idi.*





*Məmləkətin yarıdan ziyadəsi bolşeviklərin atəşinə yaxılıb, qılınclarından keçirilmiş və paytaxtları da həmçinin bütün Azərbaycan xalqını hər dəqiqə qan dəryasına qərq etməyə hazır olan bolşeviklər əlində idi. Digər tərəfdən, üfüq dumanlı və övza da [vəziyyət də] qeyri-müsaid idi. Zaqafqaziyanın başlıca millətləri arasında ədavət və ədəmi-etimad [etimadsızlıq] olduğundan, Zaqafqaziya millətləri münasibatını tənzim etmək üçün müqtəzi [lazım olan] təmas yox idi.*

*Müstəqil bir dövlət bərpa və müstəhkəm etmək [qurmaq və möhkəmləndirmək] üçün bir çox zəhmət və hümmət sərf etmək lazım idi. Xüsusi dövlətinə adət edinməmiş məmləkət və millət əmiq [dərin] bir psixoloji inqilab keçirdi və bu ağır təcrübələr, şədid [şiddətli] mübarizələr girdabı içində, bəklənilməz bir surətlə xalq kütləsinin ən aşağı təbəqələri vəhdəti-milliyyə anlağı ibraz edərək [göstərərək], müstəqil siyasi varlığa sınmaz bir dirək oldu.*

*Vəhdəti-milliyyə sayəsində Azərbaycan xalqı vahid milli cəbhə təşkil etdi ki, təhlükə zamanlarında hər bir sinfi və firqəvi ixtilafları fəramuş edərək [yaddan çıxararaq], əldə silah olaraq cümhuriyyətlərinin heysiyyət və şərəfini müdafiə etməyə hazırdır. Azərbaycan türkləri işbu vəhdəti-milliyyələri ilə siyasi müstəqil yaşayışa olan iradələrin izhar etdilər [nümayiş etdirdilər]. Və şimdi yenə Azərbaycan türklərini tamamilə anlayırlar ki, əldə etdikləri istiqlalı müstəhkəm etməkdən [möhkəmləndirməkdən] ötrü olunacaq mübarizədə yenə bir çox hümmət və qüvvət sərf etmək lazım gələcəkdir. Və bu yaxın zamanda Zaqafqaziyanın mütəbaqi [qalan] cümhuriyyətləri ilə bərpa ediləcək səmimi və dostanə münasibat [münasibətlər] milli cəbhəyə daha ziyadə qüvvə və səbat verəcəkdir.*

*Az zaman zərfində türklər müdəbbiranə [ağıllı; uzaqgörən] bir üsul ilə demokratik millətlər ailəsi içinə əvvəlinci müsəlman cümhuriyyətini daxil etdilər və siyasi istiqlalları zamanında Azərbaycan türklərinin həyata müstəid [istedadlı, qabiliyyətli] olub, siyasətcə kamala ərmələrini bir dəfə daha bütün cahana isbat etdilər.*

*Azərbaycan hökuməti kəndi varlığı əsnasında millət və məmləkəti üçün nələr yapmış? Hökumət birinci səneyi-dövriyyəsində ünas və zükur [qadınlar və kişilər] üçün olaraq bir çox ibtidai və edadi məkatib [məktəblər] və darülfünun açmış, müxtəlif xeyriyyə və maarif cəmiyyətləri güşad etmiş [açmış], müsəvvər [şəkilli] məcmuələr nəşr etmiş, rüşvətxorlara və möhtəkirlərə qarşı da elani-hərb etmişdir. Dövlət və camaat xadimlərinin həpsi üzərinə nəzarət təyin edərək, xalqın mənafeyinə rəğmən hərəkətdə bulunanları aman verməksizin cəzalandırır. Müntəzəm bir ordu təşkil etmiş ki, intizam və ədəbi ilə və hərbi işləri kamalınca anlaması ilə yeni təşəkkül etmiş cümhuriyyətlərin bir çoxu üçün əxzi-ibrət etməyə [ibrət götürməyə] xidmət edə bilər.*

*Və ən başlıcası odur ki, məmləkətin bütün təbəələrinə, din və millət ayırmaqsızın, yek nəzərlə baxaraq, Azərbaycan ərazisi daxilində yaşayan qeyri-islamlar ilə müsəlmanlar arasında münasibati-dostanə bərpa etmişdir."*

## İSTİQLAL MÜZƏSİ

Ədəbi Yaşıl Qələm dərnəyi üzvlərindən Hüseyn bəy Mirzəcamalov ilə Məhəmməd Ağayev Bakıda bir müzə [muzey] təsis etmək fikrinə düşmüş, işbu fikirlərini də qövldən feilə [sözdən əmələ] çıxarmışlardır. Məlum olduğu üzrə, mütəşəbbüslər çoxdan bəri milli bir müzə təsis etmək fikri ilə uğraşdıqlarından, müzəyə toplana biləcək bir taqım əski şeylər də toplamışlardır. İyun ayında Azərbaycan Parlamanı Divani-Rəyasətinə bu məzmunda bir ərzi-hal vermişlər.

*"Azərbaycan Parlamanı rəisi canibi-alilərinə*

*Sənələrdən bəri bəslədiyimiz bir arzu vardır ki, o da vətənimiz Azərbaycanda bir milli müzə təsisidir. Ümumavropa müharibəsi bizim bu fikrimizə mane olmuş və hər birimizi bir diyara atmışdır.*

*İndi istiqlalımız bizi genə də görüşdürmüş və əski arzumuzu yadımıza salmışdır. Sabiq Rusiya zamanında təsis edəcəyimiz müzənin adını "Milli müzə" qoymaq fikrində idiksə də, bu gün hər fərdimizin köksünü qabardan "istiqlal" şüarı olmasına və bu şüar müzənin təsisinə girişməmiz zamanına təsadüf etməsinə görə, "İstiqlal" müzəsi olmasını daha münasib görürüz.*

*Əlyövm [hazırda] müzə üçün bir çox şeylərimiz vardır. Əgər əlimizdə olan şeyləri bir odaya toplayaraq başqalara da qəzetələr vasitəsilə məlumat verərsək, bir çox sandıqlarda yatan və ələləksər [əksər halda] əldə-ayaqda itib tərk olan əski və müzə üçün qiymətli şeylərimiz də meydana çıxar.*

*Gələcək müzənin binası birinci Azərbaycan Parlamanı imarətində qoyulmasını arzu etdiyimiz üçün məzkur [deyilən] imarətdə müzə üçün bir oda verilməsini cənabınızdan rica edəriz, əfəndim.*

*İmzalar:*
*Hüseyn Mirzəcamalov və*
*Məhəmməd Ağayev İrəvanlı*
*12 iyun 1919 / 13 ramazan 1337,*
*Bakı"*

14 iyun tarixdə Parlaman rəisi Həsən bəy Ağayev tərəfindən işbu ərizə üzərinə böylə bir qərar yazılmışdır:

*"Ləvazim Komisyonuna. Həmin müzə üçün Parlaman daxilində bir işıq oda verilməsi lazımdır."*

Ləvazim Komisyonu isə 19 iyun tarixli iclasında böylə bir qərar çıxarmışdır:

*"Müzənin əşyası ancaq Parlamana mütəəlliq [məxsus] olmaq şərtilə oda verilib, əvvəlinci məxaric də Parlamanın öhdəsinə götürülsün.*

*(Ləvazim müdiri imzası)"*

Banilər əllərində olan şeyləri Parlaman imarətində bir odaya toplayaraq, aşağıdakı şərtlərlə 6 noyabr 1919 sənədə birinci Azərbaycan Parlamanı Divani-Rəyasətinə təhvil vermişlər.

*"Təhvilnamə*

*Həmişəlik Azərbaycan Parlamanı ixtiyarında olaraq, hələlik Parlaman imarətində təsis edilən "İstiqlal" müzəsi adına müəssislər tərəfindən toplanmış şeylərin birinci Parlaman Divani-Rəyasətinə təhvil verilməsi haqqındakı şərait:*

*Biz – "İstiqlal" müzəsinin mütəşəbbis və müəssisləri Məhəmməd Ağayev (İrəvanlı) və Hüseyn Mirzəcamalov müzə adına toplanaraq işbu maddəyə əlavə edilmiş siyahıdakı şeyləri milli mal olmaq üçün aşağıdakı şəraitlə birinci Azərbaycan Parlamanı Divani-Rəyasətinə təhvil veririz:*

*1) Gələcəkdə ailə və xanvadəmizə [nəslimizə] mənsub olanların "İstiqlal" müzəsinə hədiyyə etmiş olduğumuz şeylərə malik olmaq iddiasında bulunmağa ixtiyarları yoxdur.*

*2) Həmin müzəyə qeyri şəxslər tərəfindən hədiyyə edilmiş şeylər və asari-ətiqə [əntiq əsərlər] nə geri qaytarılar və nə də övlad və əhfada [nəvələrə] mal ola bilər.*

*3) "İstiqlal" müzəsi milli bir müəssisə olduğu üçün bütün müzədə mövcud əşya millət malı hesab olunur. Heç kəs və heç bir müəssisə o şeylərə sahib ola bilməz.*

*4) Müzənin genişlənməsinə birinci Azərbaycan Parlamanı Divani-Rəyasəti səy edəcək və təşkilatına lazım olan bütün məxarici kəndi öhdəsinə götürəcəkdir.*

*5) Müzənin mədaxili fəqət müzənin genişlənməsinə və müzə cənbində [nəzdində] zəngin bir kütübxana vücuda gətirilməsinə sərf ediləcəkdir.*

*Qeyd: Başqa müəssisələr və müzəyə hədiyyə edənlər müzənin mədaxilindən istifadə edəmməzlər.*

*6) Parlaman Divani-Rəyasəti tərəfindən müzənin idarəsi ya xüsusi bir müdiriyyət intixab edilərək [seçilərək] ona tapşırılacaq və yaxud Parlaman komisyonlarından birinə mühəvvəl [həvalə] ediləcəkdir.*

*Qeyd: Divani-Rəyasətin səlahdidi [razılığı] ilə müzə müdiriyyətinə kənardan mütəxəssislər və təcrübəli şəxslər də dəvət edilə bilərlər, fəqət bunlar müdiriyyətdə qəti rəyə malik olammazlar.*

*7) Gələcəkdə müzəyə məxsus bir imarət almaq və tikdirmək üçün müzə mədaxilinin bir hissəsi ilə xüsusi bir fond təşkil edilməlidir.*

*Qeyd: İşbu fonda başqa müəssisələr və şəxslər də ianə edə bilərlər.*

*8) Müzəyə hədiyyə edilmiş şeylərin qiymətlərini təyin etmək üçün müdiriyyət tərəfindən mütəxəssislər dəvət ediləcək və qiymətlər haqqında müdiriyyət üzvlərinin və mütəxəssislərin imzaları ilə məzbətələr [protokollar] yazılacaqdır.*

*9) Hədiyyə edən şəxslərə hədiyyə edilmiş şeylərin adlarını və qiymətlərini mütəzəmmin [özündə ehtiva edən], müdiriyyət əzası [üzvləri] imzaları ilə qəbz verilməlidir.*

*10) Müzəyə hədiyyə edən şəxslərin adları və hədiyyə etdikləri əşyanın siyahısı müzə odasının birində və həmişə göz qabağında olmaq üzrə xüsusi bir kitaba yazılmalıdır.*

*11) Müzə üçün proqram və nizamnamə tərtibi birinci müdiriyyətə aiddir.*

*12) İşbu təhvilnamə üç nüsxədə olaraq, biri Azərbaycan Parlamanı Divani-Rəyasətində və iki qalan nüsxələr isə müəssislərdə olacaqdır.*

*Birinci Azərbaycan Parlamanı*
*Divani-Rəyasəti:*
*Parlaman rəisi naminə baş müavin*
*Həsən bəy Ağayev,*
*müavin Sultanməcid Qənizadə,*
*baş katib Əhməd Cövdət [Pepinov],*
*katib Mehdi bəy Hacınski.*
*Mütəşəbbis və müəssislər:*
*1) Məhəmməd Ağayev İrəvanlı;*
*2) Hüseyn Mirzəcamalov.*

"İstiqlal" müzəsi üçün toplanan əşya təhvilnaməsinin birinci maddəsinə əlavə:

*“1) əski qılınc; 2) əski qəmə; 3) barıt qabı; 4) uşaq boynundan asmaq üçün 70 müxtəlif boncuqlarla dua; 5) əl ilə yazma əski bir Quran; 6) ilan dərisi üstə yazılmış bir arşın uzunluğunda ayələr (dua); 7) yenə ilan dərisi üstə yazılmış ayələr (qabı ilə bərabər); 8) yenə təxminən bir metrə uzunluğunda ilan dərisi üzərində yazılmış dua; 9) gümüş mühit [çərçivəli] dairə üstə yazılmış tilsim; 10) mis üzərinə 5 müxtəlif şəkillərdə yazılmış tilsimlər; 11) 8 ayrı-ayrı kağız parçalarına yazılmış dualar; 12) təxminən 4 arşın uzunluğunda yenə bir dua; 13) gümüş üzük (tilsim); 14) fil sümüyündən qayırılmış daraq, qulaq və diş arıtlayan; 15) at şəklində pək əski bir qıfıl; 16) rus çariçası Yekaterina zamanından qalmış gümüş manat; 17) yenə həmin çariça zamanından qalmış mis şahı; 18-19-20) müxtəlif tarixli mis rus qəpikləri; 21) gümüş əski yunan pulu; 22) əl ilə yazma kitabça; 23) 7 dənə əl yazıları nümunələri; 24) 12 dənə müxtəlif tarixli mis pullar; 25) müxtəlif tarixli və müxtəlif məmləkətlərin zərbi gümüş pullar; 26) 8 dənə ağacdan qayırılmış daraqlar; 27) 2 dənə daraq qabları; 28) çubuq (mundştuk) [müştük]; 29) əski böyük xəncər; 30) yelpik; 31) əl ilə yazılmış Quran.”*

İşbu təhvilnamənin axırında Parlaman rəisi bu surətdə imza etmişdir:

*“Fövqdə məzkur [yuxarıda qeyd edilən] “İstiqlal” müzəsinə məxsus əşyaları həmişəlik Azərbaycan Parlamanına mütəəlliq [məxsus] olmaq şərti ilə müzə baniləri Hüseyn bəy Mirzəcamalov və Həsən bəy oğlu Məhəmməd Ağayevdən 6 noyabr 1919-cu sənəsi təhvil aldım.*

*İmza: Birinci Azərbaycan Parlaman sədri Həsən bəy Ağayev”*

Şimdi müzə altı ay olar ki, yaşayır. Bir çox şeylər də toplanmışdır. Yenə hər gün istər Bakıdan, istər Azərbaycanın sair nöqtələrindən tarixi və etnoqrafi və sair əski babalarımızdan qalan əşya və sairə göndərilməkdədir. Bu günlərdə “İstiqlal” müzəsinin müfəssəl siyahısını elan edəcəyiz. Hər kəsin əski anbarlarında və sandıqlarında məhv və tələf edilməkdə olan köhnə tarixi şeylər varsa, gətirib işbu müzəyə toplaması daha faydalıdır. Böylə şeyləri olanlar hər gün Parlaman binasında Hüseyn bəy Mirzəcamalova müraciət edə bilər.

*H. S.*

## ƏKMƏK MƏSƏLƏSİ

Əkmək [çörək] bahalığı get-gedə artır. Bunu görən möhtəkirlər də ehtikarlarını o nisbətdə artırmaqdadırlar. Ərbabisərvət qışlıq ehtiyatını və ehtiyata riayət edərək daha fəzlələliklə idarələrini təminə çalışırlar. Burada məğdur [məzlum] qalanlar füqəra, yalnız füqəra olur.

Əkmək məsələsinin had raddəyə [kəskin, şiddətli dərəcəyə] gəlməsi ən ziyadə füqərayi-kasibəni mütəəssir və məmləkətin bu mühüm ünsürünü mütəzərrir [zərərçəkən] etməklə, məmləkətimizin hali-təbiisini ixlal edəcəyindən [təbii halını pozacağından], bu xüsusa son dərəcədə əhəmiyyət verilməlidir.

Hökumətimiz bu müşkülatı nəzəri-etibara alaraq bəzi təşəbbüsata girişir. Hər halda, bu təşəbbüslərin hüsnnəticəsi olmasını şimdidən təmin etmək üçün işdə ciddiyyət və məsələyə bilətraf [ətraflı, təfərrüatlı] diqqət və hər dürlü ehtiyata riayət etmək lazımdır.





Bu xüsus yalnız Bakı və ətrafı deyil, bütün Azərbaycana təmsil edilməlidir. Ətrafın əmniyyətsizliyi [asayişdən, əmin-amanlıqdan uzaq olması], mərkəzi də təzəlzül edəcəyi bədihidir [sarsıdacağı aşkardır].

Onun üçün də hökumətimiz, əvvəla, xaricdən qəllə [taxıl] cəlb etmək üçün hər dürlü vəsaitə [vasitəyə] müraciət etməkdə olduğu kimi, daxildə olan ərzağın mühafizəsi və möhtəkirlər əlinə keçməməsi üçün də şiddətli təhqiqat yapmalıdır və ümumiyyətlə, böylə bir ağır və böhranlı ildə iaşəni bizzat [şəxsən] kəndi əlinə alıb, əmin əllərə tapşırılmalıdır.

Vəilla [yoxsa], müxtəlif kooperasiyalara nə qədər un verilərsə verilsin, bu işin makinası eyi və ümumi qurulmadığı halda, bundan arzu edilən nəticənin istehsalı mümkün olammayacağını zənn edirəm. Nəticədə bir girvənkə əkmək almaq üçün əhalinin kooperativlər qarşısında sabahdan axşama qədər sıra bəkləməkdə olacaqlarına zahib oluram [olacaqlarını güman edirəm]. Bizzat mədən rayonlarında hər bir rayonun yüzlər və bəzən minlərcə əmələlərinin axşam işdən çıxdıqdan sonra gəlib kooperativdən əkmək almaları son dərəcədə müşkülat və bir çox qarğa-qarışıqlığı mövcib olacağını [əmələ gətirəcəyini] şimdidən təxmin etmək qabildir. Balada [yuxarıda] bəyan olunduğu vəchlə, hökumət ümumiyyətlə ərzağı və baxüsus [xüsusi] olaraq qəlləni kəndi səlahiyyətinə aldığı təqdirdə, əkmək bişirmək və tövzi etmək vəsilələrinə [paylamaq vasitələrinə] dəxi kamilən vəziyəd etməlidir [bütövlükdə əl qoymalıdır, öz əlinə almalıdır].

Ona binaən [ona görə], şəhərlərdə furunlar [çörəkbişirmə müəssisələri], kooperativlər və sentrodomlar [mərkəzi ev idarələri] kimi müəssisələri də kəndi ixtiyarına almalıdır.

Mədən rayonlarında hər bir firmanın kəndi furunu olduğu və əmələsinin miqdarı müəyyən bulunduğu cəhətlə, bu məsələ orada daha qolaylıqla həll oluna bilər.

Köylərdə dəxi mərkəzi-qəzada [qəza mərkəzində] təsis oluna biləcək iaşə idarəsi onların ehtiyacını təmin edə bilər və surəti-tövziatın [paylama işinin] dəxi məhəlli vəsait [yerli vasitələrə] və ehtiyaca görə tərtib olunması mümkündür.

Yalnız əlverir ki, bu xüsusa şimdidən əhəmiyyət verilərək, ciddi təşəbbüsata girişilsin və ərzağın əldən çıxmaması üçün şimdidən ciddi təşəbbüslər olunsun.

Təbiidir ki, bu yolda hökumətimizə milli və ictimai müəssisələr və siyasi firqələrimiz dəxi pək çox müavinət edəcəkdir. Yalnız məsələni bilətraf eyicə düşünmək və bir an əvvəl işə başlamaq lazımdır.

*Talıbzadə Yusif Ziya*

## BİRİNCİ ÜNAS JİMNAZİYASI

Əvət, sabiqdə “Zavedeniye Svyatoy Nini” adlanan Bakı Ünas edadisi işbu sənədən etibarən “Azərbaycan Birinci Ünas jimnaziyası” namını almışdır.

Məlumdur ki, məzkur [adı çəkilən] məktəb sabiqdə də mümtaz [seçkin] olduğu kimi, bu sənə də yeni təyin olunmuş müdirə cənabları Səlimə xanım

Yaqubovun bu az bir müddət zərfində göstərmiş olduğu fövqəladə fəaliyyəti sayəsində daha da parlaq bir surət alıb, möhtəşəm bir darüttərbiyə [tərbiyə evi] olmuşdur.

Məktəbin istər milli, istər ümumi siniflərində tədrislər qayət müntəzəm olaraq, hər bir cəhətlə mütəallimlərə [şagirdlərə] məxsus təshilat [imkanlar] görülmüşdür.

İşbu məktəbin daxiləsi qayət mütəhhər [təmiz; gigiyenik] olduğu kimi, ətrafəknafı [yan-yörəsi] dəxi təharət [təmizlik] cəhətincə pək eyidir. Mütəallimələrin əlbisələri fərəhəngiz [fərəhləndirən, göz oxşayan] olub, həpsi bir qaydada və bir nizamdadır. Məktəb cənbində [nəzdində] yeni güşad olunmuş [açılmış] uşaq bağçası məktəbin gözəlliyini daha da yüksəltmişdir.

Doğrudur, mütəallimələr cərgəsində fəqir ailələrdən olanlar kəm deyildirlərsə də, fəqət bu kimilərinin təmin və təlimini və libaslarının təcdidini [təzələnməsini] xanım Murtuza Muxtarov [Murtuza Muxtarovun xanımı] dəröhdə etdikləri [öhdəsinə aldıqları] üçün əminiz ki, vəd etmiş olduqları müavinətdən imtina edəmməzlər.

Bədəhu [sonra] məktəbin ən maraqlı şeylərindən biri də fizik kabinəsidir ki, fizik dərsləri vaxtlarında mütəallimələr buraya toplaşırlar. Əvət, işbu kabinədə dürlü-dürlü həşəratın və başqa heyvanatın qəlibi-biruhları [cansız bədənləri] mövcuddur ki, mütəallimələr tarixi-təbii dərsləri vaxtlarında onları müayinə etməklə təhsil edirlər.

Bunlardan maəda [başqa], mütəallimlərin hifzüssihhələri [sağlamlığının qorunması] haqqında məktəb ənvai [müxtəlif] fədakarlığı əsirgəməyir. Mütəallimlər hər iki gündən bir müayinəyə sövq olunurlar. Onların xanələrində vüqu bulmuş əmrazdan [meydana gəlmiş xəstəlikdən] dərhal məlumat alındıqda, müsri [yoluxucu] mərəzlərə mübtəla olanların uşaqları müəyyən vaxtadək sinifə buraxılmayırlar. İştə bu hifzüssihhənin kontrolluğu müəllimlərin baş vəzifələrindən biri olmuşdur.

Xülasə, məktəbin hər bir şeyi zaidülvəsf [tərifl ənməsi artıq, tərifə ehtiyacı olmayan] olduğu üçün mümtaz olub birinciliyi bihəqqin [haqlı olaraq] qazanmışdır zənnindəyəm.

*Mütəallimə*

## BAKI XƏBƏRLƏRİ

**Rəisi-Vükəlanın Tiflisə əzimətləri**

Srağagün Rəisi-Vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli həzrətləri və Məhəmmədhəsən Hacınski cənabları Tiflisə əzimət etmişlər [yola düşmüşlər].

**Simsiz teleqrafçıların buraxılmaları**

Təşrini-əvvəlin 21 və 22-si Gürcüstan Simsiz teleqraf məktəbində simsiz teleqraf işlərini oxumaqda olan Azərbaycan ordusunun zabitan və əsakiri [zabitləri və əsgərləri] imtahanları vaqe olmuşdur. Simsiz teleqraf müfəttişi elektrik mühəndislərindən Andronikov imtahan işlərini aparmaqda idi. İmtahan əsnasında Gürcüstanda olan Azərbaycan hərbi attaşesi polkovnik [Məhəmməd bəy] Əliyev isbati-vücud [iştirak] edirdi. Bütün zabitan və əsakir müvəffəqiyyətli bir surətdə imtahan verib, birinci dərəcə simsiz teleqrafçılıq namını qazanmışdır.

*Zabit vəkilləri Şahzadə Qacar,*
*Əhməd Hacınski, Həsənov*
*və əsakirdən Bilal Pirverdiyev,*
*Mirəli Əkbər Rzazadə,*
*Qulam Babayev,*
*Seyid Həsən Mirsəmədov,*
*İsrafil Qasımov,*
*Murad Əliyev, Veysulla Hacıyev.*

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətlə, şəhər xidmətçiləri üçün Tağıyev fabrikasından bez buraxılması haqqında təşəbbüsatda bulunmuşdu. Nəzarət Bələdiyyə İdarəsinə xəbər vermişdir ki, şəhər bağları xidmətçiləri üçün əlbisə hazırlamağa 1914 arşın bez buraxılmağa icazə verilir. Digər xidmətçilər üçün isə hazırlandığı təqdirdə bez buraxılacaqdır.

**Bələdiyyə acentələri**

Bələdiyyə İdarəsi Azərbaycan Dəmiryolları müdiriyyətinə müraciətən, Xudat mövqifi [stansiyası] ilə Bakı şəhəri miyanında [arasında] hərəkət edəcək Bələdiyyə İdarəsi acentələri üçün məccani [pulsuz] bilet istəmişdir. Dəmiryolları müdiriyyəti Bələdiyyə İdarəsinə xəbər vermişdir ki, bu haqda nizamnamədə bir maddə olmadığından, müdiriyyət bilet verəmməz. Bundan ötrü Türuq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Dövləti müfəttişlik icazəsi ilə iqdamatda buluna bilər. Bakıdan Xudat mövqifinə getmək üçün isə acentələrə şəhər kassasından növbədən xaric bilet almağa icazə verilər.

**Məktəb mənzili**

Səhhəti-Ümumiyyə Nəzarəti Bələdiyyə İdarəsinin Məkatib [Məktəblər] şöbəsinə xəbər vermişdir ki, Maqazinni küçədə olan məktəb mülkü boşadılmışdır.

* * *

Daxiliyyə Nəzarəti Qarabağ general-qubernatorundan aldığı işbu məzmunda teleqramı Bələdiyyə İdarəsinə göndərmişdir:

*“Mənim dəftərxanam müdirliyi vəzifəsini ifa edən Bədəlbəyov ərzaq məsələsi tənzimindən ötrü burada lazım olduğu üçün hələlik qayıdammaz. Rica edərim ki, Bələdiyyə rəisi nəzdində onun xidmətindən çıxarılmaması haqqında iqdamatda bulunulsun.”*

**Müəllimlər üçün ərzaq**

Ticarət və Sənaye və Ərzaq Nəzarəti Bələdiyyə İdarəsinin Məkatib şöbəsinə xəbər vermişdir ki, şəhər məktəbləri müəllimləri üçün ərzaq almaq Maarif Nəzarəti deyil, Bələdiyyə İdarəsinin Məkatib şöbəsi vasitəsilə olar.

**Məktəblər haqqında**

Maarif Nəzarəti Bələdiyyə İdarəsi Məkatib şöbəsinin sualına cavabən xəbər vermişdir ki:

1) Bir nəfər müəllimi olan ibtidai məktəb bir komplektli, iki müəllimi olan iki komplektli və ilaxır hesab olunur.

2) Müəllimliyi təsdiq edilmiş əfəndilər rüşdiyyə məktəbi heyətinə daxil olur, təsdiq edilməmişlər isə müvəqqəti hesab olunurlar.

3) Rüşdiyyələrdə tədrisatda bulunan şəriət müəllimləri işbu qayda üzrə məvacib almalıdırlar: 2600 manat 34 dərsə

təqsim olunur [bölünür], xaric qismət [nəticə] müəllimin dərsi miqdarına zərb edilir.

4) Şərqi və rəsm müəllimlərinə isə şöbə öz səvabdidi ilə [özü bildiyi kimi] məvacib təyin edir.

5) Ev, yanacaq, işıq məsələlərində isə şəhər və kənd müəllimləri bərabər olmalıdırlar.

**Azərbaycan Darülfünununda**

Azərbaycan Dövləti Darülfünununun [Azərbaycan Dövlət Universitetinin] Şərq fakültəsində sabiq Rusiya Əlsineyi-Şərqiyyə [Şərq Dilləri] Darülfünunu professoru Məhəmməd ağa Şahtaxtlı türk sərfi [türk dilinin morfologiyası], professor Hişam fars lisanı, professor [Lev] Zimin ərəb lisanı mühazirələrini oxuyacaqdırlar.

Darülfünun müdiriyyətindən verilən məlumata nəzərən, ən yaxın zaman Məhəmməd Əmin Rəsulzadə cənabları darülfünunda yeni türk ədəbiyyatı haqqında mühazirələr oxuyacaqdır.

**Məsai Nəzarətinin istatistik və ümran-maarif şöbəsi fəaliyyəti**

Məsai [Əmək] Nəzarəti kəndisinin İstatistik və Ümran-maarif [mədəni-maarif] layihəsini tərtib vermişdir. İşbu layihəyə məbni [əsasən], Nəzarət bütün Cümhuriyyət sənaye və ticarəti fəhlələri əhvalını təhqiq etməlidir, müəssisədarlar ilə fəhlələr beynindəki [arasındakı] ixtilaflar, tətillər haqqında məlumat toplamalıdır. Əlavə, sığorta cəmiyyətləri və fəaliyyətləri haqqında da məlumat cəm etməlidir. Lazım olduğu vaxt ətrafda məsai borsaları güşadı [əmək birjaları açılması] haqqında layihə tərtibi və qeyrə maarif işlərində isə Məsai Nəzarəti fəhlə və təşkilatlarına geniş müavinət təsis etmək ehtimalındadır.

Nəzarət 1920-ci sənədə bir çox kurslar güşadını ehtimal edir ki, kurslarda müsəlman və rus və digər millətlərə mənsub fəhlələr tədris ediləcəklərdir.

Kurslarda “istehlak”, “Kəsbkarlar [Həmkarlar] İttifaqı” və “müskirat [içki] ilə mübarizə” əqidəsinə tərvic [rəvac] veriləcəkdir.

Nəzarət bu məqsəddən ötrü Fəhlə Klubu, “Kooperasiya” və Neftçilər İttifaqı ilə etilafa [razılığa] girmək xəyalındadır.

Şöbə işbu sənənin sonunadək xüsusən müsəlman fəhlələri üçün ixtiyarındakı məbləğdən “istehlak” və qeyrə haqqında bir çox mühazirələr təyinini qərara almışdır.

1920-ci sənənin əvailində [əvvəlində] qəzalarda da fəaliyyətə başlayacaqdır.

Hal-hazırda şöbə xüsusi bir ərzaq fondu yaradır ki, lazımi ərzaq alacaqdır. Ərzaq fəhlə təşkilatları və dövləti müəssisələr xidmətçilərinə veriləcəkdir.

**Əsgər toplanılması**

Baş Ərkani-hərb [Hərbi Qərargah] rəisi Bakı qubernatoruna xəbər vermişdir ki, Göyçay qəza əxzi-əsgər [hərbi çağırış] idarəsinin verdiyi məlumata görə, Kürdəmir uçastokunda əsgər toplanması gözəl bir surətdə ifa edilərək, gözəl bir nəticə vermişdir.

Hərbiyyə naziri Kürdəmir uçastokunda böylə gözəl və mükəmməl surətdə əsgər toplanılmasını polis idarəsinin fəaliyyətinəədd [hesab] edib, qəza qaimməqamı [qəza rəisi] [Lütfəli bəy] Zülqədərovun və keçmişdə pristav olan, indi isə müvəqqəti Qazax general-qubernatoru Qocayevin kəndi vəzifələrinin layiqincə ifa etməkləri sayəsindən olduğunu bəyan etmişdir.

Bakı qubernatoru fövqdə mündəric ittifaqı [yuxarıda yazılan hadisəni] kəndi ziri-dəstində [əlinin altında; tabeliyində] olan xidmətçilərə bir nümunə olaraq nişan verib, Zülqədərova, Qocayevə izhari-təşəkkür edir.

**Gecə kursunda**

İranlıların maarif cəmiyyəti “Tərəqqi”nin kişilərdən ötrü məccani [pulsuz] açdığı gecə kursunda 18 yaşından əskik olmamaq şərti ilə müdavimlər qəbul edilir. Xahiş edənlər hər gün axşam saat 8-də məktəbin binasında (Sadovı, nömrə 19) müdirə müraciət etməlidirlər.

**Cavad qəzasında**

Cavad qəzasının Qaravəlli və Əyribucaq köyü əhalisi Bakı qubernatoruna müraciətlə rica etmişlərdi ki, bunlara xüsusi bir köy camaatı hesab edilməklə kəndiləri üçün xüsusi yüzbaşı intixab etməkdə [seçməkdə] icazə versin.

Bunların bu xahişlərinə cavab olaraq Bakı qubernatoru Cavad qəza qaimməqamına xəbər verir ki, köy əhalisinə bildirsin ki, işbu məsələ ümumi surətdə Parlaman müzakirəsindən keçənədək əncamsız qalacaqdır.

**Yeni xəstəlik**

Cavad qəza qaimməqamı Bakı qubernatoruna xəbər verir ki, Biləsuvar pristavından aldığı məlumata görə, təşrini-əvvəlin [oktyabrın] axırlarından bəri camaat arasında yeni və naməlum bir xəstəlik peyda olmuşdur. Bu xəstəliyə düçar olanların bir çoxu ölməkdədir. Qaimməqam əlavə etmişdir ki, kəndisi qəza həkiminə Biləsuvar mahalının heç bir yerində davacat bulunmadığı üçün xəstəliyin önünü almağa onun tərəfindən lazımi təşəbbüsat edilməsini bildirmişdir.

**Şamaxı qəzasında**

Şamaxı qəzasının Şıxlar köy əhalisi Bakı qubernatoruna müraciətlə, onların köyləri yüzbaşısına tabe olduqları Nəbir köyündən çox uzaq olması, camaatın bir çox müşkülata düçar olmağına cəhət xahiş etmişlər ki, qubernator onların kəndiləri üçün ayrı bir mahal hesab edilib, xüsusi yüzbaşı intixab etmələrinə icazə versin. Camaatın işbu ilticası [xahişi] xüsusunda Bakı qubernatoru Daxiliyyə Nəzarətinə məlumat vermişdir.

**Təyin**

Bakı qubernatoru əmri ilə Bakı sakini Hidayət Səlimov işbu təşrini-saninin 15-dən Dəvəçinski uçastokun pristav müavinliyinə təyin edilmişdir.

* * *

Bakı qubernatorunun əmri ilə Şuşa şəhəri sakini Surxay bəy Fətəlibəyov təşrini-saninin 16-dan Quba şəhərinin ikinci uçastoku pristav müavinliyi xidmətinə təyin edilmişdir.

**Hadisat**

**Xurcun**

Səşənbə [çərşənbə axşamı] günü təşrini-saninin 18-də müvəqqətən Bakıya

varid olmuş [gəlmiş] Şamaxı şəhəri sakinləri Məşhədi Kamal Hacı Ziyaəddin oğlu, qardaşı Mahmud Hacı Ziyaəddin oğlu və Məşhədi Ağakərim Hacı Məhəmmədəli oğlu polis məmuriyyətinə xəbər vermişlərdir ki, Bazarnı və Qubernski küçələrin küncündə çörəksatanın yanında çörək almaq üçün dayanıb içində 20,000 (iyirmi min) manatlıq manufaktur malı olan xurcunlarını yerə qoyaraq, çörək alıb parasını verdikdən sonra görmüşlər ki, xurcun oğurlanmışdır. Şikayətçilər bu işdə çörəkçi Balabəy Zülfəli oğlundan və şahbalut [şabalıd] satan Babarza Məlikrza oğlundan və çörəksatanın bir nəfər əqvamından [qohumundan] şübhələnmişlərdir. Binaənileyh [ona görə], Balabəy Zülfəli oğlu və Babarza Məlikrza oğlu tövqif [həbs] edilmişlərdir. Üçüncüsü isə gizlənmişdir. Pulun və manufakturanın bulunmasına polis tərəfindən təşəbbüsat edilməkdədir.

**Bomba**

Səşənbə [çərşənbə axşamı] günü təşrini-saninin 18-də axşam saat 8-də polis məmurlarından Rəhim Bahadurov Kolodezni soqaqda birinci nömrəli evdə olan Hacı-Tərxan quberniyası sakini Dmitri Çepisovu üçüncü polis idarəsinə gətirib xəbər vermişdir ki, yol ilə keçərkən növbətçi qaraqol Yusifovun fit sədasına gəldikdə, Yusifov məzkura [adı çəkilən şəxsə] xəbər vermiş ki, Kolodezni küçədə birinci nömrəli evdə bomba vardır. Ona görə Çepisovun evinə gəldikdə, məzkur bir dənə ingilis əl bombası vermişdir. Evi axtardıqda, beş dənə beşaçılan tüfəng fişəngindən başqa bir şey kəşf edilməmişdir.

**Oğurluq**

Kubinski küçədə faytonçu Mirbabayevin 54 nömrəli evində olan İvan Ostrovski polis idarəsinə xəbər vermişdir ki, göstərilən adresdə olan ev sahibinin qarajının pəncərəsindən təşrini-saninin 18-ci gecəsi 57,950 manatlıq cürbəcür avtomobil, fayton əşyası oğurlanmışdır. Bu işdə məznun [şübhəli] Almas Əlixas oğlu, Əmrulla Əlimərdan oğlu və Əlihüseyn Əliəsgər oğlu tövqif [həbs] edilmişlərdir. Oğurlanan əşyanın bulunması üçün lazımi tədabir ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

## BİRJADA

Kerenski minlik 800-1050 manata qədər, 250-lik kəndi qiymətindən 20 faiz və xırda 42 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 800-1550 manata qədər, yüzlüyü 200-325 manata qədər və xırdası 80-95 faizə qədərdir.

Türkiyə kağız lirəsi 195 manat və Zaqafqaz bonu min manata 8 manat fəzlədir.

Türkiyə altun lirəsi 950 manat, imperial 780 manat, altun onluq 1100 manat və Avstriya altunu 2150 manatdır.

Gümüş manat 80 manat və xırda gümüş paranın 1 manatı 32 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 6 qrana olmuşdur.

Susinin topu 1020 manata gedir.

## PARLAMAN KOMİSYONLARINDA

- Təşrini-saninin 13-də Maliyyə Nəzarətindən – Batum general-konsulluğu nəzdindəki ticarət şöbəsində Maliyyə Nəzarəti nümayəndəliyi təsisi haqqında;

- Təşrini-saninin 15-də Ədliyyə Nəzarətindən – Ümuri-cəzaiyyədə [cinayət işlərində] təhərriyyat [axtarış], təhqiqatiəvvəliyyə [ibtidai istintaq], təhqiqatiistintaqiyyə [istintaq] və məhkəmə təhqiqatı haqqındakı qəvaidin təğyir və təbdili [qaydaların dəyişdirilməsi və düzəldilməsi] haqqında qanun layihələri Parlamanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komisyonuna varid [daxil] olmuşdurlar.

## FİRQƏ VƏ CƏMİYYƏTLƏR

**Ünas Cəmiyyətində**

Bakıda neçə illərdən bəri fəaliyyətdə bulunan Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsi, məlum olduğu üzrə, sair təşkilat və cəmiyyətlərimiz kimi son zamanlar fəaliyyətini bilmərrə dayandıraraq yoxluq dərəcəsinə gəlmişdi. Ona görədir ki, bu axır günlər bəzi təşəbbüslərə iqdam etmək [başlamaq] istəmişsə də, müvəffəq olmamışdır. Məsələn, keçən illər cəmiyyət tərəfindən açılmış olan qızlara məxsus hünər məktəbini təcdid [bərpa] etmək təşəbbüsü müvəffəqiyyətsiz qalıb, heç bir nəticə verməmişdir. Məktəbə gəlmək istəyən olmamışdır.

Bu müvəffəqiyyətsizlik həman fəaliyyətsizlik nəticəsidir.

Fəaliyyətsizlik isə bəzi daxili səbəblərdən nəşət edir [irəli gəlir]. Ona görədir ki, cəmiyyəti böylə ölüm halından diriltmək, ona ruh və həyat vermək lazım gəlir. Zira ümuma məlumdur ki, hankı sinif, silk və cins olursa-olsun, nə qədər çalışmaq istərsə-istəsin, müəyyən təşkilat olmadıqca müvəffəqiyyətlə çalışammayacaqdır. Bizlərə isə hər növ təşkilat, xüsusən qadınlara məxsus təşkilat düzəltmək su və hava qədər zəruri bir məsələdir.

İştə burasını nəzərə alaraq Bakı Ünas Cəmiyyəti-Xeyriyyəsi fəaliyyətini təzələmək və yaxşı çalışa bilmək üçün yeni qüvvələr cəlb etmək, qabaqkı idarəni dəyişmək fikrinə düşmüşdür. Buna görə də cümə günü təşrini-sani (noyabr) 21-də ümumi iclas təyin etmişdir.

Bu iclasda bir çox əhəmiyyətli məsələlər həll olunacaqdır. Binaənileyh [ona görə], ümumiyyətlə camaat idarələrinə, ictimai işlərə, xüsusən qadınlarımızın təlim, tərbiyə və fəaliyyətinə əhəmiyyət verən ümum xanımlarımız bu iclasa təşrif gətirməyi özlərinə fərz [borc] bilməli və oraya gəlməlidirlər.

İclasın vaxtı və məkanı elanda bildiriləcəkdir.

**İanə**

Səttarov qardaşları qaçqınlar nəfinə [xeyrinə] olaraq Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə 5 min manat və Kərbəlayı Səfdər 50 manat və Əhməd bəy Qəbulov Yetimlər yurdu üçün 3 min manat ianə vermişlərdir.

**Qaçqınlara himayət**

Qaçqınlardan Dadaş Tağı oğlunu "Azərbaycan" qəzetəsi mühərrirlərindən Xudadad bəy Əzizbəyli və Safiyə Kərbəlayı Məhəmməd qızını Şəhər Bələdiyyə İdarəsi üzvü Abbasəli Kərimov evlərinə saxlamaq üçün götürmüşlərdir.

**Faytonçu**

Dərbənddən varid olan [gələn] qaçqınlardan Ərus və Gülüstan Molla Əhməd qızları və Mirbaba Mirkərim oğlu şəhərdə yersiz qaldıqda, Məşqətə [Maştağa] kəndi əhli Cəbrayıl Hacı Dadaş oğlu nam [adlı] bir faytonçu bunlara evlərində yer-yataq, yemək və hər bir ləvazimat verib saxlayır. Cəmiyyəti-Xeyriyyə tərəfindən bunlara ancaq 4 girvənkə yarım çörək verilir.

## AZƏRBAYCANDA

**Qazaxdan**
**Yenə qaçqınların halına dair**

Başıaçıq, ayaqyalın, üryan, ac və yalavac qalan, həyatın bu rəzil və sərgərdan balalarının vaveyla sədasına bu gün xanımlar, Qazaxın o pişrovu [qabaqda gedəni] möhtərəmə simaları hay verdilər və yığılıb qaçqınlara böylə bir kömək etdilər:

Qaçqınların çoxu çılpaq idi, xüsusən qadınlar əndamlarını örtməyə bir əski-üskü tapmayırdılar və bununla dişarı çıxıb özlərinə bir ruzi tapmaqdan məhrum qalmışdılar. Bunu görən qadınlar cəmiyyəti qət etdi ki, bunlara paltar yığsın və işə başlayıb 170-ə qədər cürbəcür paltar topladı. Bu yolda xüsusi ciddiyyət göstərən Badisəba xanım Köçərli, Mədinə xanım Qiyasbəyli və Dilşad xanım Şadılı cənabları oldular. Buna görə bu əfəndilərdən və ümumən xanımlar cəmiyyətindən sidqi-dildən razılıq edib etiraf edirik ki, Qazax xanımları həqiqətən Qazaxın tərəqqisində bir məşəldirlər və hətta Azərbaycan xanımları arasında bir çox cəhətdən pişrovluğa iddia etməyə haqları da vardır. Bu halı saf qəlb ilə alqışlayırız.

Ancaq nədənsə, bu axır vaxtlarda xanımlar cəmiyyətinin səsi bir az zəif çıxır. Özünü bir az az büruzə verir, az fəaliyyət göstərir. Məsələn, iclaslarında bir neçə kərə qərar qoyublar ki, qaçqın uşaqlarından ötrü bir darüleytam [yetimxana] açıb, onlara orada əl işi öyrətsinlər və həmçinin qaçqınların arvadları üçün bir iş ucu tədarük görsünlər. Amma çox heyif ki, bu vaxta kimi öz qərarlarına əməl etməyirlər. Xanım əfəndilər bilməlidirlər ki, onların bu yolda hər dəqiqə etdikləri təxirləri qaçqınların halını dəxi də fənalaşdırır. Ona görə, bu arzularını yerinə yetirməklərində çox tələsməlidirlər.

Və ümumən xanım əfəndilər, cəmiyyətlərinin başqa cəhətlərinə də fikir verib, ümumi işlərinə daha da ciddiyyət vermələri təmənna olunur. Əfəndilər unutmamalıdırlar ki, mədəniyyətimizin həqiqi sütunlarından biri də bunlardır və şair də onların barəsində:

*Ana bir bağ, çiçək açar qucağı,*
*Canlı güllər yaşar o gülşəndə,*
*Ananın qucağı cənnətdir...*

demişdir.

Və böylə təkrarən deyirik ki, Allah bu xanımlardan razı olsun ki, öz əllərini soyulub soğan olan qardaş-bacılarına uzatdılar. Cənabi-Haqq onlara tövfiq [kömək olsun] və ömür versin.

Bu yolda onlardan dəxi də artıq səy və kuşiş [çalışmaq] diləyiriz.





## GÜRCÜSTAN XƏBƏRLƏRİ

**Ermənistan və Gürcüstan etilafına dair**

Gürcüstan Hərbiyyə naziri [Noy Vissarionoviç] Ramişvili Ermənistan hökuməti rəisi Xatisovdan böylə bir teleqraf almışdır:

*"Qars mahalını səyahətim əsnasında Ərdahan gürcü hissələrinin ehtiram qaraqolu tərəfindən istiqbal edildim [qarşılandım]. Ermənistan nümayəndəsinə göstərdiyiniz hüsn-qəbuldan dolayı sizə səmimi təşəkkürlər edirəm. Hər iki qonşu xalq arasında əqd edilən müahidənamə [imzalanan saziş] bu tayfaların və Ermənistan, Gürcüstan ordularının qardaşlığına səbəb olacağına inanıram."*

Hərbiyyə naziri Ramişvili Ermənistan Cümhuriyyəti rəisi Xatisova böylə bir cavabi teleqraf göndərmişdir:

*"Ərdahandakı qoşun hissələrimizə ətfi-nəzər [nəzər saldığı] və təbriklərdən dolayı səmimi təşəkkürlər edirəm. Hər iki qardaş millətin və bunların ordusunun etilaf əqdi [razılaşma imzalaması] ilə ibtidası [əsası] qoyulan ittihad və məvəddətinə [birlik və məhəbbətinə] və gündən-günə möhkəmləşib tövsisinə [genişlənməsinə] imanım kamildir."*

**İtibdir**

Noyabrın 9-da 8 yaşında Sultan adında bir ləzgi uşağı itibdir. Türkcə də bilmir. Tapanlardan bu adresə xəbər vermələrini acizanə rica edirəm: Nikolayevski küçə, "Təbriz" mehmanxanası, telefon 34-39.

*14069*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**S. M. Hamburq**

Dişlərin müalicəsi və ağrısız çəkilməsi, kauçuk, qızıl və platina üzrə hər növ işlərin

qəbulu. Qulluqçulara güzəşt olunur. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nkolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*14059*

**Doktor**
**M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Doktor**
**V. K. Finkelşteyn**

Qulaq, burun, boğaz və cərrahiyyə naxoşluqlarına müalicə edir.

Qəbul olunur səhərlər saat 8-dən 9-adək; axşamlar saat 5-dən 7-yədək.

Telefon 24-70.

Vorontsovski küçə, ev nömrə 4, Parapetin küncündə.

*14052*

**Doktor**
**C. N. Ləmbəranski**

Daxiliyyə və cərrahiyyə naxoşluqlarına müalicə edir. Qəbul olunur gündüzlər 10-dan 12-yədək; axşamlar 5-dən 7-yədək.

Ünvan: Birjavaya küçə 8, telefon 57-30.

*14040*

**Doktor**
**Mustafa bəy Hacıqasımov**

Xüsusi arvad naxoşluqlarına müalicə edir. Qəbul edir axşamlar saat 4-dən 6-yadək, cümə günlərindən başqa.

Adres: Vorontsovski küçə, nömrə 17. Doktor Qarabəyovun müalicəxanası.

*14034*

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla əhaliyə elan edir ki, bişmiş çörəyin girvənkəsi 5 manat 50 qəpikdən baha olmamaq üzrə "Kooperasiya" İttifaqının aşağıda zikr olunan dükanlarında satılacaqdır:

1-ci polis müfəttişliyində:

"Samopomoş" dükanı, nömrə 4, Bayılda.

2-ci polis müfəttişliyində:

"Morskoy" kooperativ dükan, nömrə 2 (kənarda olan fəhlələr üçün);

"Zoloto-serebrennikov", Sadovaya küçədə, "Səadət"in qarşısında.

"Şəhər bələdiyyə idarəsi qulluqçularının", Nikolayeviski küçədə.

3-cü polis müfəttişliyində:

"Qafqaz rus demokrat", Pasajda.

"Samopomoş", Pasajda.

"Mürüvvət" ət satılan cərgədə.

"Zoloto-serebrennikov" dükan, nömrə 4, Pasajda.

4-cü polis müfəttişliyində:

"Obyedeninye qortsev", Sisiyanovski və Aziatski küçələrin küncündə.

"Vətəndaşlar", 2-ci paralelni küçədə.

"Novxanı", 4-cü paralelni küçədə

"İnsan", 1-ci paralelni küçədə.

5-ci polis müfəttişliyində:

"Morskoy" kooperativ, Bolşaya Morskaya küçədə.

"Kooperativni Soyuz", Kolyubakinski küçə.

6-cı polis müfəttişliyində:

"Səyan", 1-ci paralelni küçədə.

"Kooperativni Soyuz", Krasnovodski küçədə.

7-ci polis müfəttişliyində:

"Samopomoş", Telefonnı küçədə.

8-ci polis müfəttişliyində:

"Kooperativni Soyuz", 1-ci Qanlıtəpə küçəsində.

9-cu polis müfəttişliyində:

"Samopomoş", 6-ci Zavağzalnı küçədə.

"Mayak", Balaxanski şosedə.

*Nazirin müavini: Y[usifəli] Əliyev*

*T-347*





**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Doktor İ. M. Bronşteyn**

Xüsusi əmrazi-zöhrəviyyə, dəri və daxiliyyə naxoluqları qəbul edir. Hər gün səhər saat 10-dan 1-ədək; axşam saat 4-dən 7-yədək. Şamaxinka 12, telefon 4-21.

*14003*

Bakı paraxodlar bürosunun Bakı acentəliyi naminə Bakı-Ənzəliyə göndərişi iki qəbz itibdir. 1 – 513 nömrəli 11 kisə pesok; 2 – 492 nömrəli 2 yeşik qalantereyni mal Əliyev naminə itib. Etibardan saqitdir [etibarsızdır].

*14067*

Bakı paraxodlar bürosunun Bakı acentəliyinin Bakı-Ənzəli göndərişi 493 nömrəli bir yeşik qalantereyni mal Əliyev naminə bir qəbz itibdir. Etibardan saqitdir.

*14068*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Sirk "Modern"**

səh. 427. "Pəncşənbə günü noyabrın 20-ndə": qəzetdə səhvən "Çaharşənbə günü noyabrın 19-nda" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 431. "Avamlar Kamerasında": Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

**İtaliyada intixabat**

səh. 432. "az-çox bir qüvvəti təmsil etməkdədir": qəzetdə "bir" yerinə "bu" getmişdir.

"Bundan başqa bu firqə": qəzetdə "bu" yerinə "bir" getmişdir.

**İstiqlal Müzəsi**

səh. 440. "şərtilə oda verilib": qəzetdə "oda" yerinə "ona" getmişdir.

**Birinci Ünas jimnaziyası**

səh. 443. "Ünas edadisi": qızlar məktəbi; "edadi" – təhsildə ibtidai və orta dərəcəli (rüşdiyyə) məktəblərdən sonra gələn və şagirdləri ali məktəbə hazırlayan məktəblərə (lisey; gimnaziya) deyilirdi.

**Bakı xəbərləri**

səh. 446. "müəssisədarlar ilə fəhlələr beynindəki": qəzetdə "ilə" yerinə "isə" getmişdir.

səh. 448. "pulun və manufakturanın bulunmasına": "pulun" yerinə güman ki, "bunun" olmalı idi.

"Kolodezni soqaq": Bakıda, indiki Leopold və Mstislav Rostropoviçlər küçəsi.

**Azərbaycanda**

səh. 450. “Ana bir bağ, çiçək açar qucağı…”: misralar Azərbaycan şairi Məhəmməd Hadinindir.

“soyulub soğan olan”: qəzetdə “soğan” sözü təhrif edilmişdir.





**Cümə, 21 noyabr 1919-cu il, nömrə 327**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 27 səfərül-müzəffər sənə 1338. 21 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məşixəti-İslamiyyə [Şeyxülislamlıq İdarəsi] məmurları kamali-təəssüflə elam edirlər [bildirirlər] ki, işbu noyabrın 19-da gündüz saat birdə onların girami [əziz] və möhtərəm yoldaşları, üzvi-Məşixət Ələddin əfəndi Sübhanquluzadə rəhmətihaqqa vasil olmuş. Mərhumun təşyeyicənazəsi [cənazəsinin yola salınması] Dəniz kənarında Mirbabayevin evində olan mənzilindən iyirmi birində cümə günü saat 1-də qaldırılıb İçərişəhərdə Cümə məscidində ədayi-salavatdan [namazı qılındıqdan] sonra Çənbərəkənd qəbiristanında dəfn olunacaqdır.

*T-351*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı qazıları Axund Əbdürrəhim Hadizadə və Əbülqasım Əminzadə kamali-hüzn və təhəssürlə [böyük bir kədər və həsrətlə] Məşixət üzvü Ələddin əfəndi Sübhanquluzadə həzrətlərinin civarirəhmətə [rəhmət diyarına] vasil olduğunu ümum müsliminə [bütün müsəlmanlara] xəbər verirlər. Təşyeyi-cənazə 21 təşrinisani cümə günü saat birdə Dərya kənarında Mirbabayevin evində olacaqdır.

*14071*

## ELAN

**Bakı Şəhər Bələdiyyə İdarəsi tərəfindən**

Ev nəqliyyat su ölçülərinin (vodomer) dəfəatla [dəfələrlə] oğurlanmasını nəzərə alaraq, Bakı Şəhər Bələdiyyə İdarəsinin Su və nəqliyyat şöbəsi möhtərəm müştərilərdən xahiş edir:

1) Su ölçülərinin göstərdiyini yazmaqdan və ölçüləri imtahan etməkdən ötrü şəhər su və nəqliyyat acentələri surət[in]də gələn zəvatdan [şəxslərdən] bu hərəkətləri icra etmək üçün Bakı Şəhər Bələdiyyə İdarəsinin Su və nəqliyyat şöbəsi tərəfindən verilən xüsusi vəsiqələri əlbəttə tələb etmək;

2) Su ölçülərinin oğurlanması mühafizəsi üçün lazımi təşəbbüsatda bulunmaq və su ölçülərinin qutularını həmişə qıfıl ilə bərkitmək;

3) Su ölçüləri üçün gəlib vəsiqə ya order təqdim etməyən zəvatı əlbəttə tutub polis müfəttişliyinə xəbər verməli;

4) Su ölçülərinin oğurlanmaması üçün Su və nəqliyyat şöbəsi aydın və həqiqi fabrika markası olmayan su ölçülərinin qoyulmağına icazə verməyib və təhqiq də etməyəcək və böylə ölçülərin naməlum zəvatdan alınmamasını rica edir.

*T-349*